**“Cəbr və riyazi məntiq” şöbəsinin 2020-ci ilin I yarımili üçün elmi və elmi təşkilati fəaliyyəti haqqında**

**HESABATI**

Şöbədə 2 mövzu üzrə birində 2, digərində 3 olmaqla 5 iş yerinə yetirilir.

**Mövzu 1. Cəbr və riyazi məntiqin üsullarının tətbiqi.**

**Mövzu 2. Nəsirəddin Tusinin riyaziyyat və məntiq elmlərinə dair əsərlərinin tədqiqi.**

Birinci yarımildə şöbədə işlər planda nəzərdə tutulduğu kimi aparılmışdır.

Birinci mövzu üzrə hesabat dövründə, A.Şahbazov kompakt metrik fəzalarda (ümumi halda Hausdorff topoloji fəzalarında) təyin olunan kəsiməz funksiyaların topoloji halqalarında kompozisiya (və eləcə də çəkili kompozisiya) operatorlarının spektral xassələri araşdırmışdır və hal-hazırda bu sahədə araşdırma davam edir. Baxılan mözu üzrə hazırlanmış tezis karantinlə əlaqədar olaraq təxirə salınma ilə çap olunmayıb.İlin sonuna kimi bu mövzu ilə əlaqədar məqalə çap olunması gözlənilir. Qeyd olunan aylar ərzində dissertant V.Məmmədova ilə online şəkildə elmi işlər üzrə əlaqələr davam etdirilmişdir.

İkinci mövzu üzrə N.Tusinin "Əsas əl-iktibas", "Təcrid əl-məntiq", "Şərh əl-işarət", "Arximedin kürə və silindr" kitabına şərh” əsərləri tədqiq edilmişdir. N.Tusinin silloqistikasının Aristotel silloqistikasından fərqli cəhətləri müəyyən edilmişdir.

N.Tusinin “Təcrid-əl-məntiq” əsərində modal təkliflər, onların təşnifatı, müxtəlif modallıqlar arasında qarşılıqlı münasibətlər tədqiq edilərək öyrənilmişdir. Modallıqların təsnifatında iki yanaşmanın olduğu təcbit edilmişdir.

N.Tusinin “Arximedin kürə və silindr kitabına şərh” əsərin tədqiq edilərkən aşkar edilmişdir ki, Q.Matviyevskayanın da qeyd etdiyi kimi, dairənin sahəsi ilə onu daxilinə çəkilmiş fiqurların sahələri arasında müəyyən nisbət mövcüd deyil; başqa sözlə, bu nisbət irrasionaldır.

E.Məmmədov elmi araşdırmalarla yanaşı İ.A.Maltsevin “Дискретная математика” adlı monoqrafiyasını azərbaycan dilinə tərcüməsi üzərində işləri davam etdirir.

**Şöbə müdiri:** **Ə.Ə.Babayev**